Məmmədov Məhəmməd Məmmədsəid oğlu

FOLKLORŞÜNASLIĞA TÖHFƏ

Folklorla magiyanın qarşılıqlı əlaqələri müasir folklorşünasliq elminin maraq dairəsində olan problemlərdən biridir. Magiya dini düşüncənin həm qaynağı, həm də ilkin mərhələlərindən hesab olunsa da, o, şifahi düşüncə hadisəsi olan folklorla daeyni zamanda bağlıdır. Belə ki, sözlü mətnlər olan magik mətnlər şifahi şəkildə yaranır, yaşayır və söyləyicilər tərəfindən nəsildən-nəslə ötürülür. Müstəqil düşüncə forması olan magiyabütövlükdə folklor deyildir O, öz inkişafı ilə bir tərəfdən dini düşüncəyə doğru, ikinci bir tərəfdən isə sözlü janrlar kimi folklorun strukturuna daxil olur.Magiya bir insanın digər insanlara, heyvanlara, bitkilərə, hətta təbiət hadisələrinə təsir etmək bacarığına inamdır.

Elmin inkişafı mədəniyyətin qədim tipi kimi bəşər cəmiyyətinin inkişaf tarixinin ən aşağı pilləsinə məxsus olan magiyanın cəmiyyətdəki rolunu minimuma endirsə də, o, öz funksional gücünü qorumağa və saxlamağa müəyyən qədər nail olmuşdur. Qorxunun qarşısını almaqda aciz olan insanlar sözün gücünə tapınmış, psixi düşüncədə qorxuya qarşı qorxusuzluq yaratmaqla onu dəf etməyə çalışmışdır. Magik elementlərlə zəngin olan poeziyanın, eləcə də sehrin, ovsunun, cadunun insan təkamülündəki ən başlıca xidmətləri məhz qorxu vahiməsini aradan qaldırmaqda, insanda qorxusuzluq düşüncəsinə inamı bərpa etməkdə, cəngavər, mübariz və vətənpərvər nəslin yaranmasındakı əhəmiyyəti idi.

Magiya uydurma, xəyali məharətin və yaxud ağlasığmaz manipulyasiyanın köməyi ilə ətraf aləmə təsir etməkdir. Magik manipulyasiyanın əhatə dairəsi çox genişdir: bu, sözlər, əşyalar, yazılar və müxtəlif hərəkətlər ola bilər. Başqa sözlə, ana dilimizdə daha çox "sehr" mənasında olan "magiya" fövqəlbəşər güclərdən istifadə ilə təbii prosesə müdaxilə edilməsi, təbiət qanunlarına zidd nəticələr əldə etmək üçün bəzi gizli və sirli əməliyyatlar edilməsidir. Folklor və magiya əlaqələrinin semantik sturukturu və tipologiyasının tədqiqi baxımdan mərasim mətnlərinin öyrənilməsi vacibdir, çünki belə mətnlər magik motivlərlə zəngindir.

Magiya və mifologiya bir-birindən ayrılmazdır və magik təsəvvürlər ümumən mifoloji inanclar sistemin bir parçasıdır.Folklorşünaslığımızda folklorun semantik strukturu və tipologiyası ilə bağlı çoxsaylı tədqiqatlar olsa da, folklor və magiya əlaqələrini əks etdirən araşdırmalar demək olar ki, yoxdərəcəsindədir. Məhz bu baxımdan Sevda İmanovanın "Folklor və magiya" ( "Elm və təhsil" nəşriyyatı, 2017) monoqrafiyası diqqəti cəlb edir. Monoqrafiyada folklor və magiya əlaqələrinin semantik strukturu və tipologiyasının Azərbaycan folklor örnəkləri əsasında araşdırılması mövzunu daha da aktuallaşdırır. Monoqrafiyada folklor və magiya probleminin nəzəri-tipoloji aspektləri, magik folklor janrlarının semantik strukturu və tipologiyası, mövsüm mərasim nəğmələrinin, epik folklor obrazlarının magik struktur və tipologiyası araşdırılır.

Monoqrafiyanın "Magiya, din, folklor və janr" adlanan I fəslində göstərilir ki, öz kökü etibarilə həm də magiya ilə bağlı olan folkloruonunla birləşdirən ortaq nöqtə magik söz kultlarıdır. Tədqiqatçı qeyd edir ki, folklor və magiya əlaqələrinin semantik strukturu və tipologiyasının ifadə olunduğu sahə magik folklor janrları ilə bağlıdır(1, 15-29). Poetik strukturun bütün səviyyələrində magiyanın hakim olduğu bu janrlar kiçik həcmli nümunələr olsa da, semantik struktur baxımdan zəngindirlər. Təfəkkürün inkişafını ovsun-din-elm olmaqla üç mərhələyə ayıran C.Frezerin fikrincə, ovsun hələdinəqədər mövcud olmuşdur. Mifoloji varlıqların, ruhların adları ilə dolu, magik məzmun daşıyan və bu üzdən bəzən anlaşılmaz da ola bilən ovsun mifoloji mətn tipi kimi ayin-mərasimlər, mifopoetik sfera ilə sıx bağlılıqdadır. Magik xarakterli formullar olan bu kiçik həcmli mətnlər hər hansı bir arzuya çatmaq, hansısa bir diləyin qəbul olunmasıistəyinin ifadəsidir və bəlli bir məqsədləişlədilir. Arxaik düşüncə çağında söz bildirdiyi cismin və ya obyektin özündən qırağa çıxmadığı üçün əski ovsun sözdən həmin sözün işarələndiyi cismə birbaşa keçid görürdü. Bu mətnlərin başlıca səciyyəsi gizlin təbiət qüvvələrinə, gözəgörünməz ruhlara yalvarışdan ibarətdir. Ovsun sakral mətn olduğundan onun variativlik dərəcəsi də minimum həddədir;struktur etibarilə kanonik tipli mətnlərə yaxın olduğundan toxunulmazdır və bu strukturun hər hansı bir şəkildə təhrifi, yəni ovsun mətninin dəyişikliyə uğradılması yolverilməzdir və hər hansı bir xırda pozulma ovsunun təsir gücünün azaldılması və ya heçəendirilməsi deməkdir. Ovsun mətnlərində insanı əhatə edən gerçək dünya arasında əlaqə öz ifadəsini tapır. Müəllif bildirir ki, ovsunların müəyyənləşdirici əlaməti Allaha, təbiət hadisələrinə, təbii və digər obyektlərə xahiş və ya müraciətdir. Ovsunlar uzun bir formalaşma, təkmilləşmə yolu keçmiş və bu yolda bu janra yaxın mövsüm-mərasim ayinləri, mərasim nəğmələri ilə semantik əlaqədə olmuş, bəzən hətta onlarla qovuşmuş, birləşmişlər. Elə buna görə bir sıra hallarda ovsunlar tilsim, fal, sehrləeyniləşdirilmişdir.

Monoqrafiyanın "Liro-dramatik folklor və magiya" adlanan II fəslində müəllif göstərir ki, ritualların tərkib hissələri olan mərasim nəğmələri magiya ilə sıx bağlıdır. Belə ki, fövqəltəbii qüvvə vəvarlıqlara təsir etmək üçün təyin olunan ritual magiya olmadan keçinə bilməz.Ritual nəğmələrində qədim insanın məişətində rast gəldiyi və dərk etməkdə çətinlik çəkdiyi müxtəlif hadisələrə münasibəti əsasında formalaşan silsilə follklor nümunələridir. Burada erkən düşüncənin ifadə modelləri, etik-estetik dünyagörüşü, əxlaq, ritual və etiqadlar öz əksini tapmışdır. Mərasim nəğmələrinin böyük qismi bədnəzərlə, müxtəlif xəstəliklərlə, məişət və təbiət hadisələri, bitki və heyvanat aləmi ilə də bağlı yaranmışdır (1, 52). Müəllif "Epik folklor və magiya" fəslində qeyd edir ki, folklor və magiya əlaqələrinin semantik strukturu və tipologiyasının tədqiqi baxımından epik folklorjanrları, xüsusilə dastanlar və nağıllar zəngin material verir. Magik düşüncə ilə bağlı təsəvvürlər folklorda özünü müxtəlif obrazların nümunəsində qorumaqda davam edir. Dədə Qorqud, Salur Qazan, Koroğlu, Kərəm və s. kimi obrazlar qədim magik-mifoloji təsəvvürlərləəlaqəli obrazlardır.

Tədqiqatçı tipoloji xüsusiyyətlərinəgörə bir-birindən fərqlənən magik görüşlərlə bağlı obrazları 2 qrupda təsnif etməyi məqsədəuyğun sayır: 1. Bilavasitə magik görüşləri təcəssüm etdirən obrazlar; 2. Magik cizgilərlə əlaqədar qəhrəman obrazları (1, 71). Müəllifin fikrincə, bilavasitə magik görüşləri təcəssüm etdirən obrazları birləşdirən əsas tipoloji əlamət, göstərici həmin obrazların "qam" adı ilə əlaqəli olmasıdır. Bayandır xanın atası QamĞan adi bir hökmdar, adi bir xan deyildir: O şaman hökmdarı, kahin hökmdardır. Müəllif prof. S.Rzasoya əsaslanaraq bildirir ki, QamĞansemantemi Çar-Jreçsemanteminin oğuz-türk ekvivalenti olmaqla, bu titul daşıyıcılarının həm dəşakral hakimiyyət daşıyıcılarıoldğunu göstərir. Müqəddəs çar tanrılarla təbəələr arasında "əlaqəçi" idi, öz sakral qabiliyyətləri sayəsində cəmiyyət üçün sabitlik və çiçəklənməni təmin edirdi. Lap qədim dövrlərin düşüncəsinə qayıtdıqcahökmdarların mifik-magik xüsusiyyətləri daha aydın bilinməyə başlayır. QamĞanobrazı bu baxımdan yerlə göylər aləmi, insanlarla tanrılar arasında əlaqə yaradan obrazdır. Bu obrazın sintezmi onda 2 əsas xəttin-hakimiyyət və şamanlıq xətlərinin sintez olunmasında istifadə olunur (1,74-75).

Dədə Qorqudun ad-titullarının hamısı magiya ilə bağlıdır. Oğuz elinin bilicisi olan Dədə Qorqud mediator, liminal obraz kimi birbaşa magik görüşlərlə bağlıdır. Çünki magik subyekt fərqli dünyalar arasında fövqəladə üsullarla əlaqə yaradan mediator, liminal varlıqdır. Məhz magik qabiliyyətlərə malik olduğu üçün Dədə Qorqud Dəli Qarcarı ram edə bilir. "Vilayət issi" olmaq, "vəlilik sahibi"olmaq, yəni övliyalıq deməkdir. Övliyalıq isə magik gücə sahib olmağın islami dərəcələrindən biridir (1, 79-81).

Salur Qazan özünü bir şeir parçasında qaplanın, aslanın, qurdun, sunqur quşunun nəslindən hesab edir. Qazanın oğuzların tapındıqları bu heyvanlarla əlaqəsi, onların kökündən olması ilə fəxr etməsi onun həmin heyvanlarla mistik-magik əlaqəyə malik olduğunu göstərir. Salur Qazan obrazının bir qəhrəman kimi magik görüşlərlə bağlılığı öz bədii ifadəsini eposun II boyunda onun yurd, su, qurd vəköpəklə xəbərləşməsində tapmışdır. ŞöklüMəliyin öz qoşunu iləgəlib Qazan xanın evini, yurdunu, ev adamlarını, təsərrüfatını talayıb aparması hadisəsindən qəhrəman mistik-magik üsulla, yəni yuxu vasitəsilə xəbər tutur. Müəllifin fikrincə, Qazanın yuxusu mediasiya aktıdır və bu aktın mediasiya formulunun bütün strukturunu (qara qayğılı yuxu, onunla gələn mesaj, yuxu obrazları və presedentlərinin xaotiksimvolikası və s.) əhatə etməsi Qazanın yuxugörmə aktını şaman//qəhrəman arxetipinin süjetdən "görünən" ilk funksional paradiqması kimi qəbul etməyə imkan verir. Şamana tabe olan ruhlar ona hadisələri xəbər verdiyi kimi, şaman//qəhrəmanQazana təhlükə haqqında xəbərləri onlarla əlaqəli metafizik varlıqlar verir. Qazan xanın cansız əşya və heyvanlarla xəbərləşməsi, heç şübhəsiz ki, onun qeyri-adiqabiliyyətlərə, yəni bu qeyri-insani varlıqlarla magik-mediativəlaqə yaratmaq bacarığına sahib olduğunu göstərir.

Qəhrəmanın buxəbərləşmələrini "şaman qamlama aktı" adlandıran S.Rzasoyyurd və s. xəbərləşməni düzgün olaraq "mediativ-mistik" kommunikasiya modeli kimi səciyyələndirir vəQazan buxəbərləşmələrlə şaman//qəhrəman kimi Ağ ban evin, Qarıcıq Ananın, oğluUruzun və s.izlərini müəyyənləşdirir. Bu izlər ona "kafərin" keçdiyi yolu göstərir.

Magiyada əsas olan təbiət güclərinin insaniradəsunə tabe edilməsidir. Burada biz magik üsullarla təbiəti, onun ayrı-ayrı obyektlərini təmsil edən güclərin ram edilərək insanın iradəsinə tabe edildiyini görürük. Qazanın yurda, suya müraciətləri əyə inancı ilə bağlıdır. Müəllif bildirir ki, Qazanın cansız təbiət gücləri və heyvanlarla "xəbərləşmələri" onun magik gücə və qabiliyyətlərə malik olduğunu göstərir, Qazan öz magik-mediativ qabiliyyətlərini öz heyvanəcdadlarından almışdır. Qazan dastanda bu heyvanların nəslindən olmasını özünün üstünlüyü kimi tərənnüm edir. Bu üstünlük də qəhrəmanın məhz magik-mifik güc və qabiliyyətlərə malik olmasında ifadəolunmuşdur (1, 85-95).

Dastanın "Dirsə xan oğlu Buğacın boyu"nda Xızırın yaranı üç dəfə sığallaması və ona südü ilə dağ çiçəyinin məlhəm olaraq göstərilməsi də magik görüşlərə əsaslanır. Ana südü və dağ çiçəyinin hər ikisi magik ana kultunun gücünü ifadəedir.Müəllif bu bölümdə "Dədə Qorqud" dastanının magik təsəvvürlərlə bağlılığı baxımından dörd üzü niqablı igid obrazı da diqqəti cəlb edir. S.İmanova qeyd edir ki, dünyanın bütün xalqlarında bəd göz, gözə gətirmə inancı vardır. S.Rzasoyun fikrinə əsaslananmüəllif qeyd edir ki, Beyrəyin üzünün niqablaörtülməsi islamın kontekstində müqəddəslərin öz simaların, başqa sözlə, Allahın təcəlla etdiyi mənalar aləminigizlətmələrinə uyğundur (1,101-106).

"Koroğlu" dastanında milli-mənəvi dəyərlərimiz, o cümlədən magik görüşlərlə bağlı dəyərlərimiz özünəməxsus şəkildə hifz olunmuşdur. Magiya və mifologiya bir-birindən ayrılmazdırvə magik təsəvvürlər ümumən mifoloji inanclar sisteminin bir parçasıdır. Bu cəhətdən "Koroğlu" dastanının əfsanə, əsatirlər əsasında formlaşması onun həm də magik təsəvvürlər əsasında formlaşması deməkdir. Magik görüşlər tipologiyası etibarilə mifik inanclardan təşkil olunur. Magik təsəvvür, obraz və ideyaların zənginliyi baxımından diqqəti daha çox "Həmzənin Qıratı qaçırması qolu" cəlb edir. Tədqiqatçı qeyd edir ki, həmin qolda iki süjet diqqəti cəlb edir: Birincisi, Koroğlunun Hasan paşanın məclisinə aşıq paltarında getməsi və özünü bir aşıq kimi təqdim etməsi; ikincisi, "Qıratın dəliliyinin tutması" xəstəliyi. Hər iki detal birbaşa magik təsəvvürlərlə bağlıdır. Müəllif haqlı olaraq qeyd edir ki, Koroğlunun paşanın məclisinə daxil olması, əslində, ölüm dünyasına daxil olması deməkdir. Əski mifoloji-epik ənənədə qəhrəmanlar ölüm dünyasına daxil olmaq üçün magik güc-qüdrətə, magik qabiliyyətlərə malik olmalı idilər. Yəni Koroğlunun paşanın məclisinə libasdəyişmə yolu ilə daxil olması onu birbaşa magik-mifik görüşlərlə bağlayır. Bu cəhətdən Qıratın dəlilik xəstəliyi bunu birbaşa təsdiqləyir. Belə ki, Koroğlu paşanın məclisinə aşıq-cindar, aşıq-cadugər kimi daxil olur. Nəzərdən keçirdiyimiz süjetdə, əslində, bütöv magik akt təsvir olunmuşdur. Yəni burada əsas məsələ Qıratın, doğrudan da, xəstə olub-olmaması ilə bağlı deyildir. Əsas məslə süjetdə əksini tapmış "yalançı" magik aktın təsviridir (1, 109-119).

"Əsli-Kərəm" dastanında baş qəhrəman və onun əsas rəqibi olan Qara Keşiş sanki birbaşa magik görüşləri təcəssüm edən obrazlardır. Bunlardan biri (Kərəm) sanki xeyirə xidmət edən, o birisi isə (Qara Keşiş) şər xidmət edən maqlardır. Müəllif "Əsli-Kərəm" dastanının süjetini qara şamanın yeraltı dünyaya səfəri və şaman qamlamasının sturukturu ilə əlaqələndirir. S. Rzasoyun bu fikri Kərəm və Qara Keşiş obrazlarının magiya ilə bağlılığının üzərinə bir işıq salır. Dastanda Kərəm magik varıq kim təbiət stixiyaları ilə, cansız əşyalarla, heyvanlarla (dağ, su, tufan, qar, ceyran, quş, körpü, kəllə və s.) ilə danışır, onları sazı və sözü ilə rəhmə gətirir, yaxud onlara qarğış edib, bu qüvvələri qorxudur. İnsanın təbiətə güclərini ram edərək özünə tabe etməsi, bu qüvvələri öz mənafeyinə işləməyə məcbur etməsi magiyanın əsas əlamətidir."Əsli-Kərəm" dastanında Kərəmin təbiət stixiyaları ilə dini yox, magik davranış modeli ilə ünsiyyətə girdiyini görürük. Kərəm bir insan kimi bu cansız ünsürlərlə danışa bilmədiyi halda, həmin ünsürlər "dilə gəlib" Kərəmə cavab verirlər. Bunun əsasında əyə arxetipi durduğunu nəzərə alsaq, demək, Kərəm qaya, meşə və çayın ruhu-əyəsi ilə xəbərləşir. Kərəm, əslində, mediator, mediasiya yaradıcı, dünyalar arasında əlaqə yaradıcı varlıqdır. Təbii ki, onun mediatorluğunun əsasında magik güc və bacarıqları durur. "Əsli və Kərəm" dastanında söz həlledici təsir gücünə malik sehrli qüvvə kimi qəbul olunur, alqış vəqarğışlar bütün hallarda dünyanın pozulmuş quruluşunun bərpasına xidmət edir. Qəhrəman alqış və qarğış vasitəsilə ədalətsizliyi, nizamsızlığı, epik probelmi aradan qaldırır (1, 123-134).

Azərbaycan nağılları da magik görüşləri əks etdirən obraz və motivlərlə zəngindir. Magiya özünü xüsusilə sehrli nağıllarda göstərir. Bu da təbiidir, çünki, sehr, magiya bu nağıl qrupunun əsas poetik göstəricilərinitəşkil edir və onda magiyanın ən müxtəlif təzahür formalarına rast gəlirik. Nağıllarda dərvişlər həm bədxah, həm də xeyirxah olmaqla bütün hallarda, sehr və magik biliklərlə bağlıdırlar. Nağıl mətnlərində dərvişlərlə bağlı müraciət edə biləcəyimiz istənilən epizod magiyanın izlərini özündə təzahür etdirir.Möcüzəli doğuluşun vasitəçisi, icraçışı dərviş olsa da, o, bu işi magik predmet olan alma vəs.-nin vasitəsi ilə həyata keçirir. Müəllif haqlı olaraq belə bir qənaətə gəlir ki, nağıllarda müxtəlif qidaların yeyilməsi ilə qadının hamilə qalmasının da əsasında mif mətnindəki "yemək və yeni statusda doğmaq" semantikası durur (1, 145-153).

Nağıl bir folklor janrıdır və onun öz poetik tipologiyası olduğundan onda heç vaxt "təmiz"magiyadan söhbət gedə bilməz. Nağıl epik təhkiyə hadisəsidir və süjetin qurulması üçün istifadə olunan bütün materiallar epik təhkiyəyə xidmət edir. Magik görüşlərin nağıllardakı semantik sturukturu və tipologiyası da bu qanunauyğunluğun təsir dairəsindən kənara çıxmır.

Sevda İmanovanın böyük zəhmət bahasına ərsəyə gətirdiyi monoqrafiyası dilinin aydın və oxunaqlı bir dildə olması,təhlil üslubunun orjinal, arqumentlərinin əsaslı və gəldiyi nəticələrin maraqlı olması ilə diqqəti cəlb edir.Müəllif mövzu ilə bağlı diqqət mərkəzində duran mühüm tədqiqatlara istinad etməsi və ümumiləşdirməsi problemi geniş rakursda izləməyə imkan vermişdir.Tədqiqatçı elmi-nəzəri ədəbiyyatdan bəhrələnməklə, Azərbaycan folklor örnəkləri əsasında folklor və magiya probleminə aydınlıq gətirməyə nail ola bilmişdir. Monaqrafiya bir neçə dildə verilmiş zəngin ədəbiyyat siyahısı ilə bitir.

İnanırıq ki, folklor və magiya probleminə aydınlıq gətirilən bu monoqrafiya folklorşünasların diqqətini cəlb edəcək və onların həmin problemin müxtəlif istiqamətlərdə araşdırılmasında istinad etdikləri əsas qaynaqlardan birinə çevriləcək.

Ədəbiyyat:

1.İmanova S. Folklor və magiya. Bakı: "Elm və təhsil", 2017, 181 s.

Açar sözlər: Magiya, mifoloji təsəvvürlər, cadu, ovsun, mərasim nəğmələri, şaman, mistika, mediasiya, arxetip, yuxu
Ключевые слова: Магия, мифологические представления, черная магия, заговоры, обрядовые песни, шаман, мистика, медиация, архетип, сновидение
Key words: Magia, mythological imaginations, ceremony songs, time, mediation, sleep, witchcraft, magic

SUMMARY

Contribution to our Folklore studies

The presented article is devoted to the book «Foklore and magic» by Sevda İmanova. The article deals with semantic structure andtypology of folklore and magia ties and is being investigated on the base of Azerbaijan folklore examples. İn the monograph the theoretical and typological aspects of folklore and magia problem, the semantic structure of magic folklore genre and its typology, seasonal songs ceremony, epic folklore genres, especially characters in epos and sagas are investigated.

РЕЗЮМЕ

Вклад в отечественную фольклористику

Вклад статья посвящена книге СевдыИмановой под названием «Фольклор и магия». Здесь на основе образцов азербайджанскогофолбклора и магии. В монографии СевдыИмановой исследуются теоретические и типологические аспекты проблемы взаимосвязи фольклора и магии, семантическая структура и типология фольклорных жанров, связанных с магией, а также магическая структура и типология календарных и обрядовых песен, эпических жанров фольклора, и особенности главных образов сказок и эпосов.

RƏYÇİ: prof.S.Rzasoy